VASİF QULİYEV

# 180 YAŞLI ŞUŞA MƏKTƏBİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"Şuşa" nəşriyyatı
Bakı - 2010



**Şuşinski Firidun (Firidun Məhəmməd oğlu Həsənovun təxəllüsü;** 20.X.1925, Şuşa - 25.X.1997, Bakı) - musiqişünas, görkəmli musiqi tədqiqatçısı. Azərbaycan SSR əməkdar incəsənət xadimi (1989). Şuşa Müəllimlər İnstitutunu bitirdikdən sonra (1942) bir müddət rayonun Malıbəyli kəndində müəllimlik etmiş, 1942-ci ilin dekabrında könüllü olaraq Böyük Vətən müharibəsi cəbhələrinə yollanmışdır. O, Zaqafqaziya, Şimali Qafqaz, IV Ukrayna, II Belorusiya cəbhələrində döyüşmüş, Genisberqə qədər döyüş yolu keçmişdir. 1945-ci ildə müharibədən qayıdan Firidun Həsənov bir il Ağdam kolxoz məktəbində ədəbiyyat müəllimi işləmiş, sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olaraq (1946) oranı 1951-ci ildə bitirmişdir. Hələ tələbə ikən Qarabağın tarixi ilə məşğul olmuş, bu barədə bir çox elmi konfranslarda çıxış etmişdir. O, 1950-ci ildə universitetdən xaric edilmiş və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırovun göstərişi ilə yenidən ora bərpa olunmuşdur. Universiteti bitirdikdən sonra bir il Xaçmaz rayonunda, sonra isə Bakıdakı 45 №-li və 6 №-li məktəblərdə həm tarix müəllimi olmuş, həm də direktor vəzifələrində işləmişdir.

1959-cu ildən Firidun Şuşinski SSRİ-nin bir çox şəhərlərinin arxivlərində araşdırmalar aparmış və musiqi tariximizin tədqiqatı ilə məşğul olmuşdur. İlk mətbu yazısı "Vaqif və Qarabağ"dır. Bu məqaləyə görə o, SSRİ Ali Təhsil Nazirliyinin təşəkkürünü almışdır. 1948-ci ildən Azərbaycan radiosunda və 1960-cı ildən Azərbaycan televiziyasında musiqi mədəniyyəti, xüsusilə də, ifaçılıq sənəti haqqında verilişlər aparmışdır. "İfaçılıq sənəti", "Musiqi məclisləri", "İlk Şərq konsertləri və gecələri", "Toylar", "Qrammafon valları", "Muğam dəstgahları", "Çalğı musiqimiz" Azərbaycan televiziyasının və radiosunun ən yaxşı, ən populyar, ən dəyərli verilişlərindən hesab olunurdu.

Firidun Şuşinski "Şuşa" (1962; 1968, rus dilində): "Cabbar Qaryağdıoğlu" (1964; 1987), "Seyid Şuşinski" (1966; 1991), "Azərbaycan xalq musiqiçiləri" (1970, 1985; rus dilində 1980, "Sovetskiy pisatel" nəşriyyatı), "Tiflisin köhnə musiqiçiləri" (Tiflis, 1982, gürcü dilində), "Xan Şuşinski" (1989), "Musiqişünasın düşüncələri" (1995), "Sadıqcan" (2007) əsərlərinin müəllifidir.